**Sumqayıtda fəaliyyət göstərən un məmulatları müəssisəsində istehlaka yararsız məhsulların aşkarlanmasına dair məlumat**

**(19.08.2024)**

Sumqayıt şəhəri, C.Cabbarlı küçəsi 91 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Mamedov Nugzariyə məxsus “İstanbul” un məmulatları müəssisəsində Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən plandankənar yoxlama keçirilib.

Baxış zamanı müəssisədə qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların bir sıra tələblərinin pozulduğu, işçi heyətin tibbi müayinədən keçmədiyi, sanitar-gigiyenik vəziyyətin qənaətbəxş olmadığı, həmçinin istehsal sahəsində xammal məhsullarının markalanmasının qanunvericiliyin tələblərinə cavab vermədiyi və istifadə müddəti bitmiş məhsullar aşkarlanıb.

Faktla bağlı müəssisə rəhbəri barəsində inzibati qərar qəbul edilib və müəssisənin fəaliyyəti məhdudlaşdırılıb.